**Aygün Akif qızı Musayeva**

**UOT:336.22; JEL:E62;H21;Q15.**

# Struktur islahatlar və vergi inzibatçılığının təkmilləşdirilməsi

***Xülasə***

*Məqalədə Azərbaycan Respublikası Vergilər Nazirliyin stukturu, aparılan islahatlar və onların vergi sisteminin səmərəli fəaliyyətinə, şəffaflığın artırılmasına təsiri, effektiv inzibatçılığın mühüm göstəricilərindən biri olan kadr potensialı və s. sahələr üzrə görülən işlər araşdırılmış və nəticələri təhlil edilmişdir.*

***Açar sözlər.*** *Vergilər Nazirliyinin strukturu, şəffaflığın artırılması, vergi inzibatçılığı, kadr potensialı, insan resursları.*

## Giriş

Üstqrum kateqoriyası olan vergi siyasəti insan fəaliyyətinin spesifik sahəsidir. Iqtisadi sistem ilə vergi siyasəti arasında birbaşa əlaqə vardır. Bir tərəfdən, vergi siyasəti iqtisadi münasibətlərdən qaynaqlanır, ölkənin vergi siyasəti institutları vergi siyasətinin formalaşdırılması və həyata keçirilməsində iqtisadiyyatı əsas götürür, digər tərəfdən iqtisadi bazis əsasında formalaşan vergi siyasəti, maliyyə siyasətinin tərkib hissəsi kimi spesifik qanun və inkişaf məntiqi ilə xarakterizə olunan müəyyən avtonomluğa malikdir. Eyni zamanda vergi siyasəti iqtisadi sistemin tənzimləyicisi kimi dövlətin əlində iqtisadi inkişafı istiqamətləndirmə silahıdır. Iqtisadi aktivliyin stimullaşdırılmasında vergi siyasəti tənzimləyici vasitə olduğundan onun təkmilləşdirilməsi və daha səmərəli olması üçün davamlı olaraq tədbirlər görülür.

## Struktur islahatlar



İqtisadıyyatın dinamik inkişafı, vergitutma sahəsində qabaqcıl beynəlxalq təcrübənin mənimsənilməsi, vergi qanunvericiliyinin günün tələbinə uyğunlaşdırılması Nazirliyin inzibati-təşkilati strukturunda da müvafiq dəyişikliklərin aparılmasını zəruri edirdi. Belə bir vaxtda Baş Dövlət Vergi Müfəttişliyinin bazasında Azərbaycan Respublikası Vergilər Nazirliyinin yaradılması haqqında Fərmana uyğun olaraq Nazirliyin ümumi strukturu Mərkəzi Aparat, departamentlər və ərazi vergi orqanlarından ibarət oldu. Vahid vergi sistemini əmələ gətirən mühüm elementlərin qarşılıqlı əlaqələri və asılılığı həyata keçirilən islahatların sistemin bütün elementlərini əhatə etməsi zərurətini meydana çıxarır. Vergi sisteminin səmərəliliyi məhz onun kompleks şəkildə effektiv fəaliyyətindən asılı olur. Bu baxımdan Azərbaycan respublikasının vergi sistemində aparılan islahatların müsbət nəticəsinə məhz onun kompleks olaraq həyata keçirilməsi, ölkənin sosial-iqtisadi inkişafına operativ şəkildə reaksiyasının təmin olunması nəticəsində nail olunmuşdur. Azərbaycanın müstəqil vergi sisteminin yarandığı vaxtdan bu günkü dünyanın ən müasir vergi sistemi səviyyəsinə çatdığı vaxta qədər keçdiyi inkişaf yolunu başlıca təsnifat əlamətlərinə görə ayırsaq onun həm struktur və sistem üzrə, həm çoxməqsədli və məhdud məqsədli, həm də uzun, orta və qısa müddətli islahatları əhatə etdiyini görürük. Sahibkarlığın stimullaşdırılması islahatların bütün mərhələlərində əsas məqsədlərdən biri olmuşdur.

Sahibkarlığın inkişafına dövlət qayğısının daha da artırılması, bu inkişafa mane olan müdaxilələrin qarşısının alınması istiqamətli tədbirlər çərçivəsində vergi orqanlarının qarşısında mühüm vəzifələrin icrası dururdu. İslahatlarda əsas məqsəd vergi ödəyicilərinə

*©Aygün Akif qızı Musayeva i.f.d., dos. AMEA, İdarəetmə Sistemləri İnstitutu, Azərbaycan Universiteti .*
*E-mail: aygun.musayeva@gmail.com*
*©AMEA İqtisadiyyat İnstitutu*
*© www.economics.com.az*

xidmət, bəyannamələrin işlənilməsi, gecikdirilmiş hesabatların və borcların yığılması və s. funksiyaların həyata keçirilməsində nazirliyin lazımi qüvvəyə malik olmasını təmin etmək idi. Odur ki, struktur islahatlarının növbəti mərhələsi strukturların funksional fəaliyyətini əhatə edirdi. Nazirliyin strukturunun funksionallığını daha da artırmaq, vergi inzibatçılığını beynəlxalq standartlara uyğunlaşdırmaq, vergi ödəyicilərinin məlumatlandırılmasını təmin etmək, təbliğat və təşviqat işini gücləndirmək məqsədilə yerli vergi orqanında pilot (təcrübə) təsdiq olundu. Yeni struktur təcrübədə yoxlanıldı, onun bütün bölmələri üzrə aylıq fəaliyyətinin səmərəliliyini müəyyən etmək üçün müvafiq monitorinq keçirildi. Nəticə olaraq bu pilot strukturun bütün meyarlar üzrə səmərəli olduğu nəzərə alınaraq, digər rayonlarda da tətbiq edildi. 62 yerli vergi orqanının əvəzinə respublikanın bütün regionlarını əhatə edən 12 yeni Ərazi Vergilər İdarəsi yaradıldı.

Həyata keçirilən islahatlar çərçivəsində vergi orqanlarının tərkibində təhqiqat və istintaq aparan, habelə əməliyyat-axtarış fəaliyyətini həyata keçirən qurumun yaradılması çox böyük əhəmiyyət kəsb edirdi. Vergi orqanlarının fəaliyyətinin təkmilləşdirilməsi üzrə digər istiqamətlərlə yanaşı vergilərin tam məbləğdə dövlət büdcəsinə vaxtında səfərbər olunmasına müntəzəm nəzarətin həyata keçirilməsi məqsədilə, habelə vergi hüquqpozmalarına qarşı mübarizə sahəsində vergi ödəməkdən yayınma və vergi cinayətləri üzrə qanunvericiliklə müəyyən edilmiş qaydada ilkin yoxlama və ibtidai araşdırmanın aparılması, əməliyyat-axtarış fəaliyyətinin həyata keçirilməsi, digər hüquq mühafizə orqanları ilə qarşılıqlı fəaliyyətin əlaqələndirilməsi, xarici dövlətlərin vergi və maliyyə təhqiqi orqanları ilə işgüzar münasibətlərin qurulması məqsədilə Vergilər Nazirliyinin 29 may 2000-ci il tarixli əmri əsasında Hüquq Mühafizə orqanları ilə əlaqələndirmə Baş idarəsi yaradıldı. Bir qədər sonra Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 25 avqust tarixli Fərmanı ilə vergi xidmətinə öz səlahiyyətləri daxilində “hüquq-mühafizə orqanı” statusunun verilməsi ilə əlaqədar 12 sentyabr 2000-ci il tarixdə Hüquq mühafizə orqanları ilə əlaqələndirmə Baş İdarəsinin bazasında Vergi cinayətlərinin ibtidai araşdırılması İdarəsi, sonra isə nazirlikdə aparılan struktur dəyişiklikləri ilə bağlı 11 iyul 2001-ci il tarixdə Vergilər Nazirliyi yanında Vergi Cinayətlərinin İbtidai Araşdırılması Departamenti yaradıldı. Departament qanunvericiliklə müəyyən edilmiş qaydada vergi hüquqpozmalarına qarşı mübarizə sahəsində təhqiqat və əməliyyat axtarış fəaliyyətini həyata keçirir.

Dövlət büdcəsinə vergi daxilolmaları üzrə nəzərdə tutulmuş proqnoz tapşırıqların yerinə yetirilməsində iri vergi ödəyicilərinə və xüsusi vergi rejimli müəssisələrə vergi nəzarətinin səmərəliliyinin artırılması məqsədilə, eləcə də Beynəlxalq Valyuta Fondunun tövsiyələrini nəzərə alaraq 6 avqust 2001-ci il tarixdə Nazirliyin İri vergi ödəyiciləri və xüsusi vergi rejimli müəssisələrlə iş üzrə Baş İdarəsi və onun 13 yerli vergilər idarələrində olan şöbələrinin bazasında Vergilər Nazirliyi yanında İri vergi ödəyiciləri ilə iş üzrə Departament yaradıldı (hazırda Vergilər Nazirliyi yanında Xüsusi Rejimli Vergi Xidməti Departamenti adlanır). Vergi əməkdaşlarının ixtisaslarının artırılması və yenidən hazırlığının həyata keçirilməsi, insan resurslarından səmərəli istifadə olunması vergi sisteminin daha da inkişaf etdirilməsi üçün başlıca şərtlərdən biridir. Bununla əlaqədar, habelə vergi sahəsində elmi tədqiqatların aparılması  məqsədilə Nazirlər Kabinetinin 05.06.2002-ci il tarixli 90 nömrəli qərarı ilə Vergilər Nazirliyinin Tədris Mərkəzi yaradılmışdır.

Vergi idarəçiliyinin gücləndirilməsi, vergi administrasiyasının təkmilləşdirilməsi, Bakı şəhəri üzrə vergi orqanlarında funksional strukturun tətbiq edilməsi və nəzarət funksiyalarının həyata keçirilməsi mexanizminin müasir tələblərə uyğun formalaşdırılması məqsədilə vergilər nazirinin 20 dekabr 2002-ci il tarixli əmri ilə Bakı şəhəri Baş Vergilər İdarəsi və Bakı şəhərinin 11 rayonunda vergilər idarəsi ləğv olundu, əvəzində Bakı şəhəri Vergilər Departamenti yaradıldı və departamentin tərkibinə paytaxtın rayonlarını əhatə edən üç filial



© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

daxil edildi. Vergi nəzarətinin müasir standartlara uyğun təşkili, risk modelləri əsasında yoxlamaların təyin olunması və bu sahədə insan faktorunu minimuma endirmək məqsədilə vergi sistemində struktur islahatları aparılaraq 2009-cu ilin mart ayında Vergilər Nazirliyi yanında Vergi Auditi Departamenti yaradılmışdır. Göründüyü kimi Azərbaycan Respublikasının vergi sistemində həmin dövrdə həyata keçirilən islahatları 2.5-ci bölmədə verilən təsnifata əsasən çoxməqsədli islahatlara aid etmək olar. Vergilər Nazirliyinin mövcud strukturu Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 27 iyul 2011-ci il tarixli Sərəncamı ilə təsdiq edilmişdir.

**Şəkil 1.**

**Vergilər Nazirliyin strukturu**




**Vergilər Nazirliyinin strukturu (2015)**

- Naxçıvan Muxtar Respublikası Vergilər Nazirliyi (2000);
- Xüsusi Rejimli Vergi Xidmət Departamenti (2001);
- Vergi Cinayətlərinin Ibtidai Araşdırmalar Departamenti (2001);
- Vergilər Nazirliyinin Təlim Mərkəzi (2001);
- Bakı Şəhər Vergi Departamenti (2002);
- Yerli Vergi Orqanlarının Ləğvi və 12 Ərazi Vergi Orqanının yaradılması (2003);
- Vergi Auditi Departamenti (2009);
- Vergi Appelyasiya Şurası (2009) və s..

Ölkədə aparılan iri miqyaslı islahatların tərkib hissəsi kimi 23 oktyabr 2019 - ci ildə Azərbaycan Respublikasının Prezidenti Cənab İlham Əliyevin sərəncamı ilə Azərbaycan Respublikası Vergilər Nazirliyi ləğv edilərək, Azərbaycan Respublikası İqtisadi İnkişaf Nazirliyi yanında Azərbaycan Respublikası Vergi Xidməti yaradıldı. Vergilər Nazirliyin hazırki strukturu aşağıdakı kimidir:



© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

**Şəkil 2.**

**Vergilər Nazirliyin hazırki strukturu**

| | |
|---|---|
| **Azərbaycan Respublikası Vergilər Nazirliyi** | **Naxçıvan Muxtar Respublikası Vergilər Nazirliyi** |
| | **Vergi Cinayətlərinin İbtidai Araşdırılması Baş İdarəsi** |
| | **Ərazi Vergilər Baş İdarəsi** |
| | **Milli Gəlirlər Baş İdarəsi** |
| | **Bakı Şəhəri Lokal Gəlirləri Baş İdarəsi** |
| | **Ərazi Vergilər İdarələri** |
| | **Bakı Şəhəri Kiçik Sahibkarlarla Iş Üzrə Baş İdarəsi** |
| | **Çağrı Mərkəzi Baş İdarəsi** |
| | **Rayon Vergilər Şöbələri** |
| | **İdxal-ixrac Əməliyyatları Üzrə Nəzarət Baş İdarəsi** |
| | **Tədris Mərkəzi** |



Vergi sistemində aparılan struktur islahatları ilə yanaşı vergilərin könüllü ödənilməsi sisteminin inkişaf etdirilməsi, vergi fırıldaqçılığı və vergidən yayınma halları ilə mübarizənin gücləndirilməsi, vergilərin məcburi ödənilməsi sisteminin təkmilləşdirilməsi və vergi borclarının yaranmasının qarşısının alınması, vergi orqanlarında beynəlxalq standartlara uyğun idarəetmə sisteminin inkişaf etdirilməsi, müasir informasiya kommunikasiya sistemlərinin yaradılması məqsədilə Azərbaycan Respublikası Prezidentinin 12.09.2005-ci il tarixli sərəncamı ilə "Azərbaycan Respublikasında vergi inzibatçılığının təkmilləşdirilməsinin Dövlət Proqramı (2005-2007-ci illər)" təsdiq olunmuş və onun icrası uğurla həyata keçirilmişdir. Azərbaycanın vergi sistemində həyata keçirilən islahatların, eyni zamanda inzibati idarəetmənin keyfiyyətcə yaxşılaşdırılmasının mühüm bir istiqaməti də kadr potensialı və insan resurslarının idarə edilməsidir.

**İnsan resurslarının idarə edilməsi və kadr hazırlığı**

Vergi sistemində aparılan islahatların uğurla nəticələnməsi, vergi orqanlarının kadr potensialından düzgün istifadə olunmasından birbaşa asılıdır. Bu gün dünyada insan resurslarının idarə olunması prioritet məsələlərdən biri kimi qarşıda durur. Bu baxımdan Vergilər Nazirliyi kadr potensialının gücləndirilməsi və insan resurslarının səmərəli istifadə edilməsi məqsədilə "Dövlət vergi orqanlarında insan resurslarının inkişafı strategiyasının konsepsiyası"nı qəbul etmişdir. Hazırda vergi orqanlarının kadr hazırlığı prosesi məhz bu konsepsiya əsasında həyata keçirilir. Azərbaycan Respublikası Vergilər Nazirliyi sistemində kadrların bilik və peşə hazırlığı səviyyəsinin yüksəldilməsi Nazirliyin Azərbaycan Respublikası Prezidentinin 2001-ci il 19 iyul tarixli 539 nömrəli Fərmanına əsasən yaradılmış Tədris Mərkəzində həyata keçirilir. Tədris Mərkəzi ixtisasartırma və yenidən hazırlama tədris müəssisəsi statuslu elm və təhsil ocağı olmaqla dövlət vergi orqanlarının vəzifəli şəxslərinin

peşə hazırlığının təkmilləşdirilməsini və ixtisaslarının artırılmasını, habelə vergi siyasətinə dair elmi tədqiqatların aparılmasını təmin edir. Vergilər Nazirliyində 2004-cü ildə qəbul edilmiş insan resurslarının inkişafı strategiyasının konsepsiyasında insan resurslarının inkişaf sisteminin əsas komponentləri kimi aşağıdakılar əsas götürülmüşdür: təbliğat, treninq, qiymətləndirmə, həvəsləndirmə və insan resurslarının informasiya bazası.

Azərbaycan Respublikası Prezidentinin 15 aprel 2005-ci il tarixli Fərmanı ilə təsdiq edilmiş "Dövlət vergi orqanlarına işə qəbul olunmaq üçün namizədlərin müsabiqəsinin keçirilməsi haqqında Əsasnamə"yə müvafiq olaraq həmin ildən vergi orqanlarına işə qəbul qeyd olunan əsasnamənin tələblərinə müvafiq olaraq Tələbə Qəbulu üzrə Dövlət Komissiyası ilə birlikdə həyata keçirilir. Eyni zamanda 2005-ci il 12 sentyabr tarixli 992 nömrəli Sərəncamı ilə təsdiq olunmuş "Vergi inzibatçılığının təkmilləşdirilməsi üzrə Dövlət Proqramı"nda müəyyən olunmuş vəzifələrin yerinə yetirilməsi və beynəlxalq standartlara uyğunlaşdırılmaqla müasir menecment sisteminin vergi inzibatçılığına tətbiq edilməklə fəaliyyətin qiymətləndirilməsi sisteminin hazırlanması məqsədi ilə Fəaliyyətin qiymətləndirilməsi şöbəsi yaradılmışdır.

Fəaliyyətin qiymətləndirilməsi iki sahə üzrə - nazirliyin strukturları və əməkdaşları üzrə həyata keçirilir. Keçən dövr ərzində Vergilər Nazirliyinin struktur vahidləri və bölmələrinin fəaliyyətinin və əməkdaşların peşəkarlıq səviyyəsinin qiymətləndirilməsi sisteminin metodiki əsaslarını müəyyən edən qaydalar hazırlanmış və tətbiq edilmişdir. Eyni zamanda nazirliyin strukturlarının və əməkdaşlarının fəaliyyətinin qiymətləndirilməsi üzrə Avtomatlaşdırılmış Vergi İnformasiya Sistemi (AVİS) çərçivəsində avtomatlaşdırılma həyata keçirilmişdir və Menecment İnformasiya Sistemi yaradılmışdır. Vergi orqanlarına işə qəbulla əlaqədar keçirilən müsabiqələr zamanı şəffaflığın təmin edilməsi məqsədi ilə işə qəbul prosesləri zamanı respublikada ilk dəfə 2008-ci ildən etibarən namizədlərin sənədlərinin qəbulu elektron formada internet vasitəsilə qəbul edilmiş, 2009-cu ildən etibarən hər bir vakant vəzifə üzrə neçə namizədin sənədlərinin qəbul edildiyi barədə Vergilər Nazirliyinin rəsmi internet saytında məlumat dərc olunmuşdur.



**Nəticə**

Nazirliyin əməkdaşlarının fəaliyyətinin qiymətləndirilməsinin nəticələri barədə məlumatlar həvəsləndirmə, kadr ehtiyatlarının yaradılması, attestasiyaların keçirilməsi və əməkdaşlarla bağlı digər tədbirlər zamanı nəzərə alınır. Son illər aparılan kadr siyasətinin bir istiqaməti də vergi xidmətinin gəncləşdirilməsi ilə bağlı olmuşdur ki, bunun da nəticəsində hazırda vergi orqanlarının kadr potensialının əsas hissəsini gənc və orta yaş qrupları təşkil edir.

## Ədəbiyyat


1. https://president.az/
2. Vergiler Nazirliyi. https://www.taxes.gov.az/az
3. Azerbaijan "Doing Business 2020" report. https://www.doingbusiness.org/content/dam/doingBusiness/country/a/azerbaijan/AZE.pdf
4. Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi. https://www.stat.gov.az/

***Айгюн Акиф кызы Мусаева***

***Структурные реформы и совершенствование налогового администрирования***

***Аннотация***

*В статье рассматриваются структура Министерства налогов Азербайджанской Республики, проведенные реформы и их влияние на эффективное функционирование налоговой системы, повышение прозрачности, кадровых ресурсов, что является одним из важных показателей эффективного администрирования, и анализируются результаты.*

***Ключевые слова.*** *структура Министерства по Налогам, повышение прозрачности, налоговое администрирование, кадры.*

***Aygun Akif Musayeva***

***Structural reforms and improvement of tax administration***

***Abstract***

*This paper focuses on the investigation in some fields such as the structure of the Ministry of Taxes of Azerbaijan Republic, reforms that have carried out and their impact on the effective activity of the tax system, increasing transparency, human resources, which is one of the most important indicators of effective administration, others and the analysis of results.*

***Keywords.*** *structure of the Ministry of Taxes, increasing transparency, tax administration, potential of staff, human resources.*



***Elmi redaktor: i.f.d., dos. Y.Məmmədov***
***Daxil olub: 08.04.2020.***
***Çapa qəbul olunub: 15.04.2020.***

*© AMEA İqtisadiyyat İnstitutu*
*© www.economics.com.az*